

# MDB Oyunlarında Azərbaycan standartları



**Nüfuzlu beynəlxalq yarışların təşkili idman mərkəzinə çevrilən Azərbaycana böyük imic qazandırıb.**

"Bakı-2015" ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının, "Formula-1" yarışlarının, futbol üzrə Avropa Çempionatının final mərhələsinin 4 qarşılaşmasının, UEFA Avropa Liqasının finalının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər ölkəmizdə bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

Elə bunların nəticəsidir ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman paytaxtı" seçib. Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət hər zaman yüksək qiymətləndirilib.

Hazırda ölkəmiz daha bir nüfuzlu yarışa - III MDB Oyunlarına evsahibliyi edir. Yarışlar 23 idman növü (kamandan oxatma, badminton, 3x3 basketbol, boks, kanoe, çövkən, qılıncoynatma, futbol U-16, yunan-Roma güləşi, cüdo, karate, bədii gimnastika, avarçəkmə, sambo, güllə atıcılığı, stend atıcılığı, üzgüçülük, stolüstü tennis, taekvondo, batut gimnastikası, voleybol, qadın güləşçi, sərbəst güləş) üzrə keçirilir.

Böyük beynəlxalq yarışların keçirilməsi və ən yüksək səviyyədə təşkili cəhətdən artıq kifayət qədər təcrübəyə malik olan ölkəmiz 10 il öncə tarixdə ilk dəfə təşkil olunan I Avropa Oyunlarında nümayiş etdirdiyi təşkilatçılıq işlərinə görə dünyanın diqqətini üzərinə çəkmişdi. Bu gün də III MDB Oyunlarında möhtəşəm idman bazalarına, bütün əlaqədar təşkilatların birgə səylə nümunəvi fəaliyyətinə heyranlıqlarını gizlədə bilməyən xarici ölkə mütəxəssisləri, milli olimpiya komitələrinin rəhbərləri və üzvləri, ayrı-ayrı beynəlxalq federasiyaların nümayəndələri gələcəkdə öz ölkələrində mötəbər beynəlxalq yarışlar keçirməyə hazırlaşarkən Azərbaycanın təcrübəsindən istifadə edəcəklərini vurğulayırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 1 oktyabr (№ 210).- S.16.